# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ YERALTI VƏ YERÜSTÜ SU HÖVZƏLƏRİNİN AQRAR SEKTORUN İNKİŞAFINDA ROLU

***Bəxtiyar Nəbiyev***

*AR KTN Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu,*
*Abşeron Heyvandarlıq Təcrübə Stansiyası, Bakı*
*baxtiyar.nabiyev.1973@mail.ru*

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Ermənistanın törətdiyi kütləvi ekoloji terror və fəlakət faktları müəyyənləşdirilib. Nadir ağac bitki növləri, o cümlədən çinar və şam meşələri, ümumilikdə 13197,5 hektar qiymətli meşə fondu məhv edilmişdir. Ermənistanın işğalı altında olan zaman Bəsitçay və Qaragöl qoruqları, Arazboyu, Laçın, Qubadlı, Daşaltı təbiət yasaqlıqları kimi qorunan ərazilərdə "Qırmızı Kitab"a daxil olmuş 60-dan çox fauna və 70-dən çox flora növünün əksəriyyəti artıq məhv edilmişdir. İşğaldan azad olunmuş ərazilərimizdə erməni vandallarının törətdiyi ekoloji terror nəticəsində su mənbələrimizin korlanması, meşələrimizin qırılması regionun ekoloji tarazlığının pozulmasına ciddi təsir göstərmişdir.

Müharibədən dərhal sonra Prezident İlham Əliyevin göstərişi ilə ermənilərin ekologiyaya vurduqları ziyan aradan qaldırılmağa başlanıldı. Zəfər günündə 44 günün şərəfinə ölkə üzrə 44 min ağac əkilməsi

aksiyası çərçivəsində Prezident İlham Əliyev və Birinci Vitse-Prezident Mehriban Xanım Əliyeva Cıdır düzündə ağac əkdilər. Bununla da Topxana meşəsinin bərpasına başlanıldı.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əraziləri relyeflərinin biomüxtəlifliyinə görə bitkiçiliyin və heyvandarlığın inkişafı üçün geniş potensiala malikdir. İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatı ücün yararlı torpaqların müəyyənləşdirilməsi, kənd təsərrüfatı texnikasının və istehsal vasitələrinin, eləcə də bitki və heyvanların uçotunun aparılması, mühafizəsi, fitosanitar və epizootik vəziyyətin ilkin qiymətləndirilməsi həyata keçirildikdən sonra, kənd təsərrüfatının bütün sahələrinin bərpası üzrə ixtisaslaşdırılmanın planlı təşkilinə zəmin yaradıldı. İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişaf perspektivləri baxımından aparılan təhlili qiymətləndirmələrə əsasən, kimyəvi çirklənməyə məruz qalmış ərazilərdə torpaq və su resuslarının bərpası istiqamətləri müəyyən edilmişdir. Regionda bitkiçiliyin və heyvandarlığın bərpası üçün yaşıl enerji zonaları üzrə potensial imkanlar proqnozlaşdırılmışdır.

Azərbaycanda mövcud olan 623 kəhrizdən 332-si 30 ilə yaxın müddətdə işğal altında olmuşdur. İşğaldan azad olunmuş ərazilərdə əsasən 14 çay, 9 su anbarı, bir neçə böyük göl və təbii mineral bulaqlar yerləşir. Həcmi ən böyük olan Sərsəng su anbarı 3 oktyabr 2020-ci ildə Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmişdir. Anbarın işğaldan azad olunması onun yenidən işlək vəziyyətə gətirilməsi üçün şərait yaratmışdır. Sərsəng su anbarı 50 mqvt, Suqovuşan-1 su anbarı 4.8 mqvt və Suqovuşan-2 su anbarı isə 3 mqvt gücə malikdir. Hər iki stansiya əsaslı şəkildə yenidən qurulub, o cümlədən onların idarəetmə mərkəzinin binaları və avadanlıqları, stansiyalararası elektrik veriliş xətti tam yenilənmişdir. "Suqovuşan-2" stansiyasında ildə 8,7 milyon kvt/saat elektrik enerjisinin istehsal olunması nəzərdə tutulub. "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyaları işğaldan azad olunmuş ərazilərin, xüsusilə Suqovuşan və Talış qəsəbəsinin elektrik enerjisi ilə təmin olunmasında mühüm rol oynayır. Həmçinin burada istehsal olunan elektrik enerjisi paylayıcı şəbəkəsinin yeni çəkilən xətləri vasitəsi ilə digər istiqamətlərə də ötürüləcəkdir. Anbara yığılmış su ilə Tərtər, Ağdərə, Goranboy, Yevlax, Bərdə, Ağdam və Ağcabədi rayonlarının ərazilərində 96217 hektar əkin sahələrinin suvarılması nəzərdə tutulub.

Sərsəng su anbarlarından başqa digər su anbarları suvarma təyinatlı su anbarlarıdır. Bunlar əsasən, kənd təsərrüfatı əhəmiyyətli göllərdir. Xaçın su anbarı 15 mln metr kub tutuma malik olmaqla böyük su anbarı hesab olunur. Öz qrupuna aid olan su hövzələri arasında böyüklüyünə görə azad olunmuş ərazilərdə yerləşən su anbarları arasında birincidir. Ağdam rayonu ərazisində Xaçın çay üzərində yerləşir.

Azərbaycan daxilində Kür çayının sağ qolları arasında Arazdan sonra ikinci yerdə duran Tərtərçaydır. Tərtərçay mənbəyini Qarabağ vulkanik yaylasında 3180 metr yüksəklikdən götürür və Bərdə rayonu ərazisində dəniz səviyyəsindən 3 metr hündürlükdən Kür çayına tökülür. Uzunluğu 184 km, su toplayıcı sahəsi isə 2650 km kvadratdır. Tərtərçay, Kiçik Qafqazın digər çaylarında olduğu kimi öz başlanğıc mənbəyini dağlıq zonalardan götürür. Tərtərçaydan sonra ikinci böyük çay, Arazın və Arpaçayın ikinci böyük qolu olan Həkəri çayıdır. Həkəri çayı öz mənbəyini Mıxtökən silsiləsinin cənub yamacında 2580 metr yüksəklikdən götürür və dəniz səviyyəsindən 358 metr yüksəklikdən (Zəngilan rayonu ərazisində) Araza qovuşur. Həkəri çayın uzunluğu 133 km, su toplayıcı sahəsi isə 2570 km kvadratdır. Həkəri çay hövzəsi üzərində avtomatik suölçmə cihazları quraşdırılıb. Eyni zamanda, iki yeni su anbarının Həkəri və Bərgüşad çayları üzərində tikilməsi ilə bağlı layihələr hazırlanıb. Qeyd edilən hər iki çay su ehtiyatları baxımından çox zəngindir və onların üzərində yeni su anbarlarının tikilməsi həm Ağdam, Füzuli, Cəbrayıl şəhərlərinin əhalisinin içməli su ilə təminatında, həm də Yazı və digər ərazilərin əkin sahələrinin suvarılmasında böyük əhəmiyyət kəsb edəcək. Oxçuçay öz mənbəyini Zəngəzur dağ silsiləsindən (Qapıcıq dağı) götürməklə Zəngilan rayonunun ərazisi ilə axır. Araz çayının sol qolu olmaqla uzunluğu 85 km-dir.

Ermənistan ərazisində kəskin çirklənməyə məruz qalan çaylardan biri də Oxçuçaydır. Qarqar çayı öz mənbəyini Şuşa rayonundan 2080 metr hündürlükdən götürərək Xankəndi, Xocalı, Ağdam və Ağcabədi rayonlarının ərazisi ilə axır. Qarqar çayı Zarıslı və Xəlfəli çaylarının birləşməsindən əmələ gəlir. Mənbəyi ilə mənsəbi arasında hündürlük fərqi 2080 metrdir. Əsas qolları Ballıca, Bədərə və Dağdağandır.

Hesablamalara görə, Ağdam rayonunda 98 kəhrizdən il ərzində 64,333 milyon kubmetr, Füzuli rayonunda 71 kəhrizdən 19, 016 milyon kubmetr, Cəbrayıl rayonunda 111 kəhrizdən 34,658 milyon kubmetr, Qarabağın dağlıq hissəsində 52 kəhrizdən 4,225 milyon kubmetr, ümumilikdə isə işğaldan azad edilmiş ərazilərdə yerləşən kəhrizləri bərpa etməklə 122 milyon kubmetr su əldə etmək mümkündür. Bölgənin ekoloji cəhətdən təmiz enerji mənbəyi olan yeraltı termal sulardan istifadəsi isə böyük əhəmiyyət kəsb edir. İşğaldan azad olunan ərazilərdə su ehtiyatlarının bərpası istiqamətində mühüm işlər həyata keçirilir,

ərazidəki su hövzələrinin səmərəli istifadəsi və mühafizəsi üzrə dövlət nəzarəti təşkil edilib. İşğal nəticəsində infrastrukturu sıradan çıxarılan hidrometeoroloji məntəqələrdə müasir avtomatlaşdırılmış sistem tətbiq edilməklə bərpa işlərinə başlanılıb. Zəngin yerüstü və yeraltı su ehtiyatlarından həm əhalinin içməli su ilə təminatında, həm də kənd təsərrüfatının inkişafı və elektrik enerjisi istehsalı üçün böyük istifadə potensialı təşkil edilib.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 04 yanvar 2021-ci il tarixli Fərmanı ilə yaradılan publik hüquqi şəxs "Qarabağ Dirçəliş Fondu" işğaldan azad edilmiş ərazilərdə zəruri infrastrukturun formalaşması ilə yanaşı, müasir və təhlükəsiz həyatın təmin edilməsini həyata keçirir. Bu məqsədlə ilk dəfə 19 iyul 2022-ci tarixində innovativ texnoloji əsaslarla qurulmuş "Ağıllı Kənd" layihəsinin icrası olaraq Zəngilan rayonunun Ağalı kəndinə sakinlərin köçürülməsi başlanıldı. Qarabağa "Böyük Qayıdış" planının həyata keçirilməsində "Ağıllı Kənd" rəqəmsal idarəetmə konsepsiyasının reallaşması, "Ağıllı Kənd Təsərrüfatı" sisteminin inteqrasiyasında mühüm rol oynayır.

İşğaldan azad edilmiş ərazilərdə iqtisadi quruculuq işlərinin strateji hədəflərindən biri kimi aqrar sektorun bütün sahələrinin ahəngdar inkişafının təmin edilməsi məqsədilə, ekoloji cəhətdən bitkiçiliyin və heyvandarlıq məhsullarının istehsalı istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi zəruriləşmişdir. Dünya təçrübəsindən bəhrələnməklə regionda bitkiçiliyin və heyvandarlığın bərpası üçün intensiv metodların tətbiq edilməsi, istehsal bazasının möhkəmləndirilməsi və səmərəli istehsal mexanizminin qurulması başlıca hədəflərdəndir. Azad edilmiş ərazilərdə aqrar məşğulluğun təmin edilməsi məqsədilə, fermer və məhsul istehsalçılarının mövsümü köç kompaniyası ilə bərabər, ilkin olaraq yeni təsərrüfatçılıq modellərinin tədbiq ediməsinə başlanılmışdır.

Azad edilmiş ərazilərdə aparılan coxşaxəli tədbirlər sırasında bitkiçiliyin və heyvandarlığın bütün sahələrinin inkişafı məqsədilə yaradılacaq yeni məhsul tədarükü və logistika müəssisələrinin ən mühüm funksiyaları ekoloji cəhətdən təmiz ət və ət-süd məhsullarının istehsalına şərait yaradacaqdır. Tədarük və logistika infrastrukturu ilə bərabər, bölgədə istehsal strukturuna müvafiq aqro-emal və istehsal müəssisələrinin yaradılması mühüm tədbirlərdəndir. Regionda heyvandarlıq məhsullarının yüngül sənayedə istehsalı baxımından yun, gön-dəri, xəz-dəri xammal ilkin emal müəssisələrinin qurulması nəzərdə tutulub. Azad olunmuş ərazilərdə aqrar sahənin davamlı inkişafı perspektivləri nəzərə alınmaqla, yeni Aqroparkların yaradılması xüsusi əhəmiyyət kəsb edir. Yaradılacaq örüş otlaq sahələri ilə yanaşı, mədəni otlaqların, eləcə də epizootiya qaydalarına uyğun heyvan sağlamlığı (baytarlıq-sanitariya) profilaktik-peyvəndləmə və laborator diaqnostik müayinə xidmətlərinin təşkili zəruri tədbirlərdəndir. Bitki mühafizəsi sahəsi üzrə fumiqasiya mərkəzlərinin yaradılması və çoxillik yem bitkilərinin əkilməsi baxımından aqrotexniki xidmətlərin təşkili təxirəsalınmazdır. Bitkiçiliyin və heyvandarlığın regionda bərpa edilməsi məqsədilə, ilkin olaraq intensiv yem bazasının formalaşdırılması əsas amillərdəndir. Təbii otlaqların elmi əsaslarla öyrənilməsi hesabına, mədəni örüş-otlaq sahələrinin yaradılması, həmçinin torpaq-iqlim, su ehtiyatları və ekoloji faktorların tədqiqi gələcəkdə məhsuldarlığın artırılması baxımından önəmlidir. Azad edilmiş ərazilərdə birillik dənli-paxlalı və çoxillik bitkilərlə yanaşı, yonca, amarant, reygrass soya, eləcə də susuzluğa davamlı ərazilərdə xarici ölkələrdən gətirilmiş (koturğa, raps, napier, sorqo maralfalfa) texniki bitkilərinin əkilməsi zəngin yem bazasının formalaşmasına təkan verəcəkdir. Nəzərdə tutulan inkişaf planlaşdırmasına uyğun olaraq, azad olunmuş ərazilərdə fəaliyyən planına uyğun layihələrin reallaşdırılması üçün bitkiçiliyin və heyvandarlığın yenidən bərpa etdirilməsi, kənd təsərrüfatının dayanıqlı inkişafında dəyər zəncirinə inteqrasiyanı təmin etməklə bərabər, regionda sosial-iqtisadi dirçəlişə təkan verərək özünütəminetmə səviyyəsini stimullaşdıracaqdır.